# ERMƏNİ TERRORİZMİNİN GÖRÜNMƏYƏN TƏRƏFLƏRİ
**(I məqalə)**

**E.F.ƏLİYEV**

Erməni terrorizmi özünün spesifikliyi ilə seçildiyinə görə onu tam təfsilatı ilə tədqiq etmək lazımdır. Amma ilk öncə terror sözünün mahiyyəti, onun siyasi anlamı haqqında anlayış yaratmaq və onun erməni terrorizmi ilə əlaqələndirilməsi, erməni terrorizminin terrorizm anlayışının hansı kateqoriyalarına uyğun gəlməsini araşdırıb, müəyyən nəticələrə gəlmək və fikrimizi dəqiq faktlarla əsaslandırmaq lazımdır.

«Terror» latın sözü olub, qorxu, dəhşət və vahimə deməkdir. Bu anlayışa əsasən, terrorizm ictimai quruluşu və siyasi rejimi zorla dəyişmək üçün qeyri-qanuni hərəkətlərin vəhdətidir. İkinci bir anlayışa görə, terrorizm müəyyən bir siyasi və sosial məqsədlərə çatmaq üçün qrupların əhalini bütünlüklə və ya qismən məhv etmək də daxil olmaqla, hər növ zorakı hərəkətlərin vəhdətidir. Başqa bir anlayışa görə isə terrorizm öncədən müəyyənləşdirilmiş məqsədlərinə çatmaq üçün mütəşəkkil bir qrup və partiyanın ardıcıl surətdə zorakılıqdan istifadə etməsidir. Beləliklə, ümumiləşdirilmiş şəkildə demək olar ki, terrorizm ictimai quruluşu və ya mövcud iqtidarı yıxmaq və başqa siyasi məqsədlər üçün bir qrupun qorxutma, öldürmə, digər müxtəlif qeyri-qanuni vasitələrdən istifadə etməsinə deyilir. Terrorizmin müxtəlif tipləri olur: yuxarıdan terror, siyasi və ideoloji terrorizm, dini terrorizm, intellektual terrorizm[1] və s.

1976-cı ildə BMT Baş Məclisinin Altıncı Komitəsində terrorçuluqla bağlı problemin müzakirəsi zamanı bir çox üzvlər «terrorçuluğa» müəyyən anlayışın verilməsinə cəhdlər göstərmişlər. Məsələn, tanınmış hüquqşünas alim Eduard Ximenes de Aperara terrorçuluq aktlarını – «törədilərkən ixtişaşlar və panika yaratmağa səbəb olan təşkilati cəmiyyəti terror etmək, ictimai qaydanı dağıtmaq, terrora qarşı duran ictimai qüvvələrin tərəfdarlarını məhv etmək, cəmiyyətin əzab və zülm çəkməsini intensivləşdirmək məqsə-

[1] Hacıyev S. Yaxın və Orta Şərqdə separatçı terrorizm. Hədəf Türkiyə və Azərbaycan. Dirçəliş – XXI əsr. 2004 yanvar 71.

di doğuran, qabaqcadan düşünülmüş» ümumcinayətlərin ənənəvi formalarından biri kimi müəyyən edir.

ABŞ Dövlət Departamentinin terrorizmin təyinatı ilə bağlı mövqeyi də maraqlıdır: "Terrorizm – submilli qruplar və ya gizli dövlət xəfiyyələri tərəfindən hərbi əməliyyatlarda iştirak etməyənlərə qarşı yönəlmiş, qabaqcadan düşünülmüş və siyasi cəhətdən motivləşdirilmiş zorakılıq aksiyasıdır"[1].

Terror fəaliyyətinin qarşısında müəyyən məqsədlər durur:

- dövlət quruluşunu dağıtmaq
- milli və ya qruplar arasında ədalətsizliyi bərpa etmək
- beynəlxalq hüquq qaydasını dağıtmaq.

S.N.Yenikolopov isə terroristik fəaliyyətin üç əsas istiqamətini müəyyən edib:

1. öz ölkəsinin hökumətinə qarşı mübarizə;
2. milli özünütəsdiq üçün mübarizə;
3. dini terrorçuluq.

S.R.Efirov dövlət terrorunu **ultrasağ, neofaşizm, ultrasol və separatçı terrorçuluq** qollarına bölür. Q.M.Minrokovski və V.R.Revin Beynəlxalq hüquqi sənədlərə və normativ aktlara əsaslanaraq terrorçuluğu aşağıdakı kimi təsnifləndirməyi təklif edirlər:

- dövlət terrorçuluğu (bir dövlət tərəfindən digər dövlətə qarşı təşkil olunan);
- beynəlxalq;
- sistemli dövlətdaxili;
- dini.

Bu gün Azərbaycan beynəlxalq cinayətkarlığın bir hissəsi olan ekstremizmdən də əziyyət çəkir. Bununla bağlı bu anlayışın da araşdırılmasına böyük ehtiyac vardır. Ekstremizmin tərifi ilk dəfə 2001-ci ildə Şanxay Konvensiyasında verilib: «Ekstremizm – hakimiyyətin zorla ələ keçirilməsi, yaxud güclə əldə saxlanılması, eyni zamanda dövlətin konstitusion quruluşunu zorla dəyişdirmə, cəmiyyətin ictimai təhlükəsizliyinə qəsdetmə, qeyri-qanuni silahlı birləşmələri təşkiletmə və ya orada iştiraketmə kimi aydınlaşdırılır».

Biz terrorçuluğun təsnifatını müxtəlif əsaslara görə apara bilərik. Onların hamısının kökündə duran odur ki, terrorçuluq sosial-siyasi məfhumdur.

[1] U.S. Department of State, Office of the Ambassador at large for Counter-Terrorism, Patterns of Global Terrorism: 1986. Washington 1988.

O, özündə ekstremizmə xas olan cəhətləri əks etdirir. Onun bilavasitə mahiyyətinin başa düşülməsində yeni heç bir şey,demək olar ki, yoxdur[1].

Yuxarıda göstərilənlərdən aydın olur ki, erməni terrorizmi terror anlayışının bir çox parametrləri ilə üst-üstə düşür. Onun törətdiyi əməllər beynəlxalq cinayətin tərkib hissəsi kimi qiymətləndirilə bilər.

Ermənilər hər zaman siyasi problemlərini terror vasitəsilə həll etməyə çalışmışlar. Erməni terrorunun tarixi qədimdir və o, demək olar ki, bütün dünyada tətbiq olunmuşdur. Hələ XX əsrin əvvəllərində erməni terrorizminin professionallığı çoxlarına məlum idi. Bunu Edvard Radzinski belə ifadə edir: "Bu hadisə 26 iyul 1907-ci ildə, isti yay günlərinin birində baş vermişdir. Saat 11 idi. Tiflisdəki İrəvan meydanı hər zaman olduğu kimi yenə dolu idi. Bu vaxt kazak dəstələrinin müşayiəti ilə iki ekipaj meydana daxil oldu. Onlar Dövlət Bankına böyük miqdarda pul aparırdılar. Demək olar ki, onlarla eyni vaxtda meydana iki fayton da daxil olur. Onların birinin içərisində zabit geyimində kişi, digərində isə iki qadın əyləşmişdi. Həmin "zabit"in əmri ilə təqribən əlli nəfər silahlı pul ilə dolu faytonun qarşısını kəsir. Bu əlli nəfərin haradan çıxdığı bilinmədi. Kazak dəstələrinin üzərinə bombalar yağış kimi yağırdı. Hər tərəfi duman bürüdü. Bundan istifadə edən banditlər ekipajın üzərinə hücum etdilər... Bir azdan meydanda yalnız polis, kazak və əsgərlərin meyitləri qalmışdı". O, bunları erməni terrorçuları haqqında deyirdi.

Erməni terrorizminin kökü Türkiyə ərazisində başladı. Azərbaycanda baş verən terror və soyqırımlar Türkiyədə baş verən hadisələrin tarixi davamı idi. Ermənilər Türkiyədə həyata keçirə bilmədiklərini burada etməyə başladılar.

Sonradan isə bu hal bütün dünyaya yayıldı.

Tarixçilər bildirirlər ki, tarixdə təqribən irili-xırdalı 14 mindən çox müharibə olmuşdur. Amma onlardan bəlkə də heç biri erməni-azərbaycanlı müharibəsi qədər dəhşətli və qəddar olmamışdır. Ermənilər azərbaycanlılara qarşı vəhşi münasibətdə hətta faşistlərin yəhudilərə qarşı göstərdiyi qəddar münasibəti də ötüb keçmişlər. Bütün müharibələrdə döyüşləri hərbçilər aparır, döyüş əməliyyatları onlar arasında gedir. Mülki əhaliyə isə toxunulmur. Sovet ideoloji təbliğatına baxmayaraq arxiv sənədləri onu sübut edir ki, hətta II dünya müharibəsində almanlar partizanlardan başqa heç bir yerli əhaliyə toxunmurdular[2]. Amma ermənilər yalnız Azərbaycan əsgərləri ilə deyil, dinc əhaliyə qarşı da vuruşurdular. Sovet əsgərlərinin "əvəzedilməz" xidmətləri nəticəsində erməni qaniçənləri tərəfindən 1988-1994-cü illər ərzində

---

[1] 387-ci ildə Sasani və Roma imperiyaları arasında bağlanan müqaviləyə əsasən Ermənistan dövləti parçalanmış və o, öz müstəqilliyini itirmişdir.

[2] Асадов С. Философия реваншизма или армянская кровожадность. Bakı 2001. səh.4.

800-dən çox Azərbaycan kəndi işğal edildi, bu torpaqlardan 800 mindən çox insan qovuldu.

Şahidlərin ifadələri və çəkilmiş videolentlər onu bizə sübut edir ki, erməni vəhşiliyinin dünyada analoqu yoxdur. Qocalar, qadınlar, uşaqlar arasında fərq qoymadan hamını məhv edirdilər. Uşaqları tikə-tikə doğrayıb kisələrə doldurur, meyitləri tanınmaz hala salırdılar. Belə faktlar minlərlədir.

Bizə elə gəlir ki, erməni vəhşiliyinin bu cür təzahürünün bir neçə səbəbi vardır:

1. Ermənilər bu gün 1500 il[1] əvvəl itirdikləri torpaqların intiqamını alırlar. 387-ci il müqaviləsindən sonra ermənilər bütün dünyaya yayılmışlar. 1918-ci ildə Rusiyanın yardımı ilə Azərbaycan torpaqları hesabına Ermənistan Respublikası yaradılsa da bu ərazi onlara azlıq edirdi.
2. Ermənilər dünyanın iri dövlətləri tərəfindən öz məqsədləri üçün istifadə edilmişlər. Fransa, Rusiya, İngiltərə hər zaman "erməni kartı"ndan az qala Avropanı fəth edəcək Osmanlı imperiyasına qarşı yararlanmağa çalışmışlar.
3. Daha geniş səbəblərdən biri din faktorudur. Onlar xristian-müsəlman ayırımından geniş istifadə edirlər.
4. Erməni eqoizmi. Ermənilər bu ərazilərdə yalnız erməni dövlətinin olmasını istəyirlər.

Ermənilər digər millətləri qəbul etmək istəmirlər. Yəhudilərlə isə münasibətləri xüsusilə pisdir. V.L.Veliçko yazır: "Ermənilər heç zaman istəmirlər ki, onları yəhudilərlə müqayisə etsinlər"[2]. Hətta özlərini xristian dinini qəbul edən ilk xalq elan edirlər. Bu iddiaya qarşı kim çıxarsa çıxsın o, düşməndir. 1918-ci ildə nəşr edilən "Şeypur" jurnalı yazır: "Bu dövlət (Ermənistan) bəyan edir ki, Qafqazda nə Gürcüstan dövləti, nə də Azərbaycan dövləti ola bilməz, burada yalnız Ermənistan dövləti ola bilər"[3].

Şərhə ehtiyacı olmayan bir həqiqət də budur ki, Azərbaycan xalqı özünəməxsus bir milli, coğrafi zəmində, məlum zaman və məkan bölümündə yaranmış, təşəkkül tapmış və formalaşmışdır. Lakin mifik təfəkkür və əski görüşlərdən çağdaş baxışlaradək çox uzun yol keçmiş bu xalqın ulu tarixinin tədqiqi və təqdimində hələ də siyasi və etnik ərazi, demoqrafiya, etnoqrafiya, faktoqrafiya baxımından çox böyük bir boşluq göz qabağındadır. Çağdaş həyatın gerçəklərini gözdən qaçırmamaq, naqislikləri aradan silmək, milli bütövlüyün bitkin tablosunu tamamlamaq üçün bu boşluğun obyektiv

---

[1] 387-ci ildə Sasani və Roma imperiyaları arasında bağlanan müqaviləyə əsasən Ermənistan dövləti parçalanmış və o, öz müstəqilliyini itirmişdir.

[2] Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. С.Петербург 1904. Bakı, 1990. səh.67.

[3] "Şeypur" jurnalı. № 6, dekabr 1918.

yanaşma metodu və tarixin dönməzlik prinsipi əsasında doldurulmasına indi həmişəkindən daha çox və daha ciddi ehtiyac duyulur.

Türkü toplusu ilə birlikdə yer üzündən yox etmək, türk anlamını tarixdən silib atmaq kimi qan qoxulu bu bədxah çağırış erməni terrorçularının əməllərinə görün necə don geyindirir: **"Bil və agah ol, eşit və unutma! Türkün özü də, onu dəstəkləyən qüvvələr, ölkələr və dövlətlər, xalq və millətlər də sənin, yəni erməninin düşmənidir!".** Bu və buna bənzər şovinist və olduqca təhlükəli fikirləri Tehranda çıxan adlı "Araks" jurnalının səhifələrində tez-tez görmək olar.

Erməni terrorizmi metod və vasitələrinə görə rus terrorizmi ilə bağlanmış şəkildədir[1]. Bu məqamda təqribən yetmiş il əvvəl Azkanaz Mravyanın erməni terrorizmi haqqında etirafları, onun beynəlxalq aləmdə törətdikləri barədə fikirlərini göstərmək yerinə düşərdi. O, özünün "Daşnaksutyunun böhranı" adlı əsərinin 37-ci səhifəsində yazır: "Genişmiqyaslı üsyan qaldırmaq üçün daşnaklara böyük qüvvə lazım deyil. Onlar Avropa dövlətlərinin diqqətini çəkmək üçün aksiyalar zamanı çoxlu insanın ölməsini istəyirlər". Eyni fikirlər Skoland-Liddeldə də öz əksini tapmışdır: **"Ermənilər hər zaman qarşıdurma axtarışındadırlar. Buna nail olanda isə bunu elə göstərirlər ki, guya onları günahsız yerə cəzalandırıblar. Amma əslində bu onların haqqıdır. Daşnak üçün hər bir erməni qiymətlidir"**[2].

Erməni terrorçuları SSRİ-nin Dövlət Təhlükəsizlik Komitəsinin dəstəyindən istifadə edərək Azərbaycanda bir sıra terror aktı keçirərək (1989-cu illərdəki Sumqayıt hadisələri qismində) öz məqsədlərinə, yəni, "Türksüz və azərbaycanlısız Ermənistan" yaratmağa nail olmaq istəmişlər. Hətta "Daşnaksutyun" partiyasının DTK ilə sıx münasibətləri o, səviyyədə idi ki, onlar rüşvət verərək DTK-nın yüksək vəzifələrinə erməniləri təyin etdirirdilər. Bunun isə acı nəticələrini Azərbaycan xalqı gördü və bu günə kimi o dəhşətləri çəkməkdədir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Bu dövlətin geniş ərazisinin olması ermənilərin heç "xoşuna" gəlmirdi. Çünki onların nəinki dövlət sərhədləri, heç paytaxtları yox idi. Onlara xarici dövlətlərin təzyiqi ilə Azərbaycan ərazisindən müəyyən pay torpaq da verildi onlar öz "dövlətlərini" qurdular. 1919-cu ilin yayında isə Ermənistan Azərbaycana qarşı daha bir müharibəyə başladı. Erməni tarixçisi Hovanisyan bu dövrü "qiyamlar tarixi" adlandırır[3]. Bu söz birləşməsi düzgün işlənməmişdir,

---

[1] Асадов С., Мамедов И. Терроризм. Причина и следствие. Bakı, 2001. səh. 58.

[2] Война с мусульманами, армяне снова нападают. Скотланд-Лиддел. Tiflis. 1919, 30 yanvar.

[3] Hovanisyan G. Richard. The Republic of Armenia, Volume II. University of Califoniya. Los Angeles. səh. 169.

çünki onun öz doğma Ermənistanı daha bir torpaq qamarlamaq üçün müharibəyə başlamışdı[1].

Çox qəribədir ki, hamıdan çox danışan da onlardır. Tarixçi Castin Makkarti yazır: "Otuz illik müharibə və qara ölüm kimi dünya tarixinə böyük qurbanlar gətirmiş hadisələrdən biri də bu qırğınlardr. Əlbəttə, ölənlər təkcə müsəlmanlar deyildi. Ermənilərin də ölüm hadisəsi az deyildi və erməni itkilərinin üzərindən də sükutla keçmək olmaz. Lakin dünya erməni əzabları haqqında çoxdan bəri xəbərdardır. İndi isə dünyaya şərqdəki müsəlman əzabları və onun necə dəhşətli olması haqqında car çəkməyin vaxtı çatmışdır… Təəccüblü dərəcədə çoxsaylı müsəlmanlar ya öldürülmüş, ya da aclıq və xəstəlikdən qırılmışdır"[2].

Sonrakı dövrlərdə baş verən erməni terrorizmi də məhz bu qırğınların intiqamı xarakterini daşıyır. "Üç və ya dörd il ərzində ermənilərin səssiz, anonim olaraq, xüsusi əməliyyat şəklində həyata keçirdikləri terrorizm məhz "erməni məsələsi"nə xidmət edir. Bu kütləvi terrorizmdir"[3].

Türklər heç zaman öz problemlərini bildirmək istəmirlər. Ermənilər isə həmişə bu prosesdə onlardan öndə olmuşlar. Başlarına gələnləri elə dəhşətli vəziyyətdə və təkrar – təkrar verirlər ki, lap adamın buna inanmağı gəlir. Necə deyərlər yalanı 24 saata yaymaq olar, amma onun həqiqət tərəfini bildirmək üçün 100 il lazımdır[4].

Erməni terrorizmi bununla da məhdudlaşmır. Hələ 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi də erməni terrorizminin qurbanı olmuşdur. Bu barədə "Araks" jurnalı yazır: "Misak Terlekyan 1921-ci il iyulun 18-də Azərbaycanın sabiq Daxili İşlər Naziri Behbudxan Cavanşiri İstanbulda qətlə yetirdi. Aram Yerqanyan 1920-ci ildə Tiflisdə Fətəli xan Xoyskinin ömrünə son qoydu. Zareh Melik Şahnəzəryan (Arsaxlı) 1922-ci il aprelin 25-də Tiflisdə Camal paşanı qanına qəltan elədi. Həmin ildə Türküstanda Ənvər paşa bir erməni əsgəri tərəfindən öldürüldü…" Ümumiyyətlə, sadəcə əsrin əvvəllərində yüzlərlə həmvətənimiz erməni terrorizminin qurbanı olmuşdur. Hətta 1918-ci il avqust ayının 31-də Ermənistan Respublikasının hökuməti bəyanat verərək bildirmişdir ki, sadəcə bir il ərzində erməni terrorçu təşkilatları tərəfindən 400 nəfər azərbaycanlı, 120 min gürcü, 15 min türk və 22 min ləzgi qətlə yetirilmişdir. Onu bir daha qeyd etmək yerinə düşərdi ki, bu fakt hələ sovet dövründə Ermənistan Res-

---

[1] Uimz Səmyuel A. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri. Bakı, 2004. səh. 181.

[2] Mc Carty Justin. Death and Exile: The Ethnic Cleasing of Ottomman Muslims, 1821-1922. səh. 230.

[3] Gerard Chaliand et Yves Ternon. Le Genocide des Armeniens. Brüssel, 1984. səh.117.

[4] Жорж де Малевил. Армянская трагедия 1915 года. Bakı, 1990. səh. 114.

publikasının arxivindən götürülmüşdür. Bu fakt onu göstərir ki, erməni terrorizmi sərhəd tanımır.

Bu terrorçu siyasət sovet dövründə də davam etdirilmişdir.

İkinci dünya müharibəsi illərində təqribən yüz min erməni "üçüncü reyx"in tərkibində yəhudilərin məhv edilməsi prosesində iştirak etmişlər. 1935-1945-ci illər ərzində Berlində "Ermənistan" adlı radiostansiya fəaliyyət göstərirdi. Bu radio Ermənistana yayımlanaraq "hitlerçi" hakimiyyətin təbliğatını aparırdı.

İkinci dünya müharibəsi illərində erməni terrorçu təşkilatları Bakıda daha fəal idi. L.Sergeyevin yazdığına görə gestaponun rəisi Henrix Müller Bakıya gələrkən burada "beşinci kalon"u təşkil edən "Daşnaksutyun" partiyasının üzvlərini yoxlamadan keçirir. Qruppenfyurrer SS Q.Qimmlerin məruzəsində deyilir: "Mənim Bakıya səfərim zamanı müəyyən etdim ki, erməni milli təşkilatı olan "Daşnaksutyun" haqqında casuslarımızın bizə verdiyi məlumatlar tam təsdiqləndi. Biz onların köməyinə güvənə bilərik". (Gestaponun məxfi arxivi. Nürnberq prosesindən)

27 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Ertəsi gün isə burada yeni dövlət quruldu. Bu dövlətə yeni "Sovet Respublikası" adı da verildi. Yaranan bu yeni dövlətdə təqribən 45-50 il müddətində Dövlət Təhlükəsizlik Komitəsində əsasən ruslar, sonrakı 30 il müddətində isə ermənilər və ruslar işləmişdir. Hal-hazırda DTK-da çalışmış erməni terrorçu təşkilatların üzvlərinin sənədlərini araşdırmaq xeyli mürəkkəb məsələdir. Çünki bu sənədlərin sayı təqribən 70-80 mindir[1].

Yuxarıda qeyd etdiyimiz kimi, erməni terrorçuları Alman faşistlərinin rəhbərliyi altında müharibəyə girişmişlər. Əslində sual oluna bilər ki, burada qeyri adi nə vardır ki. Azərbaycan legionları da almanlar tərəfindən vuruşmuşlar. Lakin məsələ göründüyü qədər də bəsit deyildir. Belə ki, Ermənistandan olan legionerlər "Ermənistanın azadlığı və müstəqilliyi uğrunda", Dağlıq Qarabağdan olan ermənilər isə " Dağlıq Qarabağın azadlığı və müstəqilliyi uğrunda " şüarı altında vuruşurdular. Niyə ermənistanlılar ayrı, Dağlıq Qarabağda yaşayan ermənilər ayrı vuruşur. Məsələnin qəlizliyi də məhz budur. Hələ SSRİ-nin hakimiyyəti altında, bir dövlətin tərkibində yaşasaq da ermənilər heç bir zaman öz niyyətlərindən əl çəkməmişlər.

Yuxarıda göstərilənlər erməni terrorçu təşkilatların fəaliyyətinin və törətdikləri cinayət hadisələrinin ən sadə dövrünün tarixçəsidir. Bu dövrdə, yəni, XX əsrin I yarısında baş verən siyasi proseslər erməni terrorunu əyləcləyirdi. SSRİ-nin yaranması, ona qarşı dünya dövlətlərinin siyasi mübarizəsi və nəhayət II dünya müharibəsi dünya dövlətlərini başqa problemlərlə

[1] Асадов С., Мамедов И. Терроризм. Причина и следствие. Bakı, 2001. səh. 82.

qarşı-qarşıya qoymuşdu. Dünyanın "erməni məsələsi" ilə məşğul olmağa vaxtı yox idi. Lakin bu mürəkkəb dövrdə də erməni terrorçuları fəaliyyətlərini dayandırmamış, bir neçə terror aktları həyata keçirmişlər. Yeri gəlmişkən qeyd etmək istərdim ki, dünya dövlətlərinin baş bəlasına çevrilən erməni diasporu da erməni terrorizminin ilhamvericilərindəndir. Sonrakı dövrlərdə görəcəyik ki, bu diaspor təşkilatları həbs olunmuş bir neçə cinayətkar-terrorçu erməni azadlığa buraxdırmaq, hətta daha irəliyə gedərək həbsxanalardan qaçırmaq istəmişlər.

II dünya müharibəsinin bitməsindən və dünyadakı siyasi proseslərin müəyyən qədər öz qaydasına düşməsindən sonra erməni terroru da fəallaşdı. Bu fəallıq bu günə qədər davam etməkdədir.

**НЕВИДИМЫЕ СТОРОНЫ АРМЯНСКОГО ТЕРРОРИЗМА**
**(I статья)**

**Э.Ф.АЛИЕВ**

**АННОТАЦИЯ**

В статье говорится об армянском терроризме, который отличается своей специфичностью. Армянский терроризм взял свое начало в Турции, а в 1918 году продолжался в Азербайджане.

Автор статьи указывает, что в армянском терроризме большую роль сыграла партия «Дашнаксутюн».